TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

TƏHSİL, MƏDƏNİYYƏT, SOSİAL VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSİYASI

11-Cİ İCLAS

Ankara, 14 may 2024-cü il

HESABAT MƏRUZƏSİ

TÜRKPA üzv dövlətləri arasında əmək miqrasiyası üçün şəraitin asanlaşdırılması (milli qanunvericiliklərin uyğunlaşdırılması)

GİRİŞ

İşləmək məqsədilə milli sərhədləri aşmaq istər iqtisadi bərabərsizlik, istərsə də iş axtarışı və ya hər ikisi ilə bağlı beynəlxalq miqrasiyanın əsas motivlərindən biridir. İqtisadi, siyasi və ekoloji böhranların və dəyişkən demoqrafik vəziyyətin əlavə təsiri, dünyanın bəzi yerlərində əhalinin qocalması, digərlərində isə "gənclik qabarıqlığı" əmək miqrasiyasının artmasına səbəb olur.

BMT-nin Qlobal Miqrasiya üzrə Verilənlər Bazasının hazırkı qlobal qiymətləndirməsinə əsassən 2020-ci ildə dünyada təxminən 281 milyon beynəlxalq miqrant olmuş, bu da dünya əhalisinin 3,6%-nə bərabərdir. Bu rəqəm 1990-cı il göstəricisinə əsasən 128 milyon nəfər, 1970-ci ildə isə mövcud olmuş təxmini rəqəmdən üç dəfə artıqdır. Həmin 281 milyon miqrantın 169 milyonu beynəlxalq əməkçi miqrant qismində qlobal işçi qüvvəsinin 4,9%-ni təşkil edir.

2022-ci ildə miqrantlar və diasporlar tərəfindən qlobal miqyasda köçürülən pul köçürmələri 647 milyard ABŞ dolları təşkil edib. 2019-cu ilin rekorduna görə, Covid-19-dan əvvəl miqrantların pul köçürmələri təxminən 718 milyard ABŞ dolları təşkil edib və 2020-ci ildə bir qədər azalaraq 702 milyard dollara çatıb. Pul köçürmələrinin azalması miqrantların artması ilə yanaşı əməkçi miqrantların əmək haqlarının azalması və ya onların yaşadıqları ölkələrdə yaşayış minimumunun dəyərinin artması, ya da əmək haqlarının inflyasiyanın indeksasiyasına uyğun olmaması ilə özünü göstərir. Belə vəziyyət əməkçi miqrantlar üçün şəraitin pisləşməsi, o cümlədən onların

daha həssas olmasını və sosial-iqtisadi çətinliklərin təsirinə məruz qalmasını nəzərdə tutur.

Onların hüquqlarını qorumaq, sosial-iqtisadi mühitdə yaşadıqları dövlətin vətəndaşları ilə bərabər insan hüquqlarını, layiqli həyat və ədalətli əmək haqqlarını təmin etmək məqsədilə beynəlxalq birlik tərəfindən yuxarıda qeyd olunan məsələlərin yerinə yetirilməsinə yönəlmiş çoxsaylı konvensiyalar və sənədlər hazırlanmışdır. Bundan əlavə, miqrantların, o cümlədən əməkçi miqrantların həyat və hüquqlarının müdafiəsi məqsədilə müxtəlif proqram və layihələr həyata keçirilir.

Miqrantların problemlərinə dair beynəlxalq səviyyədə tanınmış "Bütün əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Beynəlxalq Konvensiya (1990) kimi sənədlər ümumilikdə Birləşmiş Millətlər Təşkilatının, "Məşğulluq üçün miqrasiya haqqında" 97 saylı Konvensiya (1949) və "Əməkçi miqrantlar (əlavə təlimatlar) haqqında" 143 saylı Konvensiya (1975) isə xüsusilə Beynəlxalq Əmək Təşkilatının çətirləri altında işlənib hazırlanmışdır. Miqrant işçilərin ədalətli idarə olunması ilə bağlı əlavə qaydalar və təlimatlar insan hüquqlarına dair universal şəkildə tətbiq olunan konvensiyalarla yanaşı digər regional təşkilatlarda da formalaşdırılıb.

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) üzv dövlətlərinin əməkçi miqrantların mənşəyi olan və onları qəbul edən ölkələr sırasında olduğu üçün həmin dövlətlərdə də əməkçi miqrantlarla bağlı məsələ gündəmdədir.

AZƏRBAYCAN

Ümumbəşəri demokratik dəyərlərə önəm verən, dünya birliyinə inteqrasiya istiqamətində uğurlu addımlar atan Azərbaycanda miqrasiya proseslərinin beynəlxalq normalara uyğun idarə olunması və tənzimlənməsinin təmin edilməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi, miqrantlara qayğının göstərilməsi istiqamətində dövlət tərəfindən əsaslı tədbirlər həyata keçirilib, həmçinin miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi sahəsində mühüm nailiyyətlər əldə edilib. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi də bu istiqamətdə mütərəqqi addımların atılmasına geniş imkanlar açıb.

Azərbaycan Respublikası ərazisində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi ölkə qanunvericiliyi ilə tənzimlənir.

Ölkədə əmək miqrasiyası proseslərinin tənzimlənməsi, əməkçi miqrantlara verilən iş icazəsi əsasında işə qəbulu qaydası və əmək fəaliyyətinin həyata keçirilməsi Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, Əmək Məcəlləsi, "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı və digər hüquqi aktlar ilə tənzimlənir. Əməkçi miqrantın işlə təmin olunması işəgötürən tərəfindən xaricdən cəlb olunmuş işçi üçün

Azərbaycan Respublikasının aidiyyəti orqanından aldığı iş icazəsi əsasında həyata keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş hədlər daxilində miqrantlar ölkədə işləmək üçün Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquq və hüquqlardan istifadə edə bilər və bu hüquqlara müvafiq olan vəzifələr daşıyırlar. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması ilə bağlı prosesi sürətləndirmək məqsədilə müraciətlərə baxılma müddəti 20 iş günündən 10 iş gününə qədər azaldılıb. Bundan əlavə, Azərbaycan Respublikasında əmək miqrasiyası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş əmək miqrasiyası kvotası və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilən iş icazələri əsasında tənzimlənir.

Azərbaycanda əmək miqrasiyası təkcə Miqrasiya Məcəlləsi və Əmək Məcəlləsi kimi müvafiq hüquqi aktlarla tənzimlənmir, eyni zamanda “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanun və digər normativ hüquqi aktlarla tənzimlənir. Milli qanunvericiliklə yanaşı, Azərbaycanda da BMT-nin 1990-cı ildə beynəlxalq səviyyədə tanınmış “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Beynəlxalq Konvensiyasının normaları 1998-ci ildə ratifikasiya olunduğu gündən etibarən tətbiq edilir.

Qeyd edək ki, əməkçi miqrantların hüquqları 2006-cı ildən əlavə olaraq məcburi dövlət sosial sığortası ilə təmin edilir. Bu o deməkdir ki, bütün əməkçi miqrantlar Azərbaycanda bütün sosial-iqtisadi hüquqlardan istifadə etmək hüququna malikdirlər.

Miqrantlarla bağlı digər mühüm məsələ Azərbaycanda daxili miqrasiyanın idarə olunmasıdır. Konvensiyanın normaları onlara da şamil edilir. Azərbaycanda daxili miqrasiya Qarabağ məsələsi və insanların öz yurd-yuvalarından məcburi köçürülməsi ilə bağlı kəskin xarakter alıb.

Azərbaycanda dövlət proqramları və strategiyaları əhalinin həyat şəraitinin sosial-iqtisadi tərkib hissəsinin daha keyfiyyətli inkişafına yönəlib. Onilliyin səy tələb edən və nüfuzlu layihələrindən biri Qarabağ bölgəsinin yenidən qurulmasıdır. 2026-cı ilədək Qarabağın yenidən qurulması və inkişafına xarici dövlətlər və tərəfdaşlarla əməkdaşlıq çərçivəsində təxminən 10 milyard ABŞ dolları məbləğində (Azərbaycanın ÜDM-nin 18%-i) sərmayə yatırılması planlaşdırılır.

Rəsmi açıqlamaya əsasən, Qarabağın yenidən qurulması və daha da inkişaf etdirilməsi məqsədilə məcburi köçkünlər üçün 150 min iş yeri yaradılacaqdır. Eyni zamanda, 2022-ci ildə qanunvericiliyə edilmiş müvafiq dəyişikliklər əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin alınması ilə bağlı müraciətlərə daha qısa müddətdə (tənzimləyici müddətləri 5 iş günü azaldaraq) baxılmasına imkan yaradır və hər dəfə iş icazəsi müddətinin 2 ildən çox olmayaraq uzadılmasını müəyyən edir.

Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tamhüquqlu subyekti kimi “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Beynəlxalq Konvensiyanın iştirakçısı olaraq Konvensiyanın icrası ilə bağlı hesabat vermək öhdəliyi daşıyır. Azərbaycan müntəzəm olaraq BMT-nin Konvensiya üzrə Komitəsinə dövri hesabatlar təqdim edir.

Azərbaycanda əmək miqrasiyasının qanunvericilik baxımından asanlaşdırılması və idarə olunması əmək miqrasiyası prosesinin bütün tərəfləri üçün hüquqların müdafiəsini və öhdəliklərin qoyulmasını təmin edən möhkəm hüquqi bazaya malikdir. Amma prosesin praktiki aparılması başqa bir məsələ olduğundan, həmin proses qeyri-məqbul nəticələrinin qarşısını almaq üçün tərəflərə öyrədilməli və izah edilməlidir. 2021-ci ildə təqdim olunmuş üçüncü dövri hesabat üzrə dinləmələr keçirilib.

QAZAXISTAN

2022-ci ildə Qazaxıstan Respublikası “2023-2027-ci illər üçün miqrasiya siyasəti haqqında” Konsepsiya qəbul edib. Konsepsiya Prezidentin Sərəncamı və Prezidentin “Ədalətli dövlət. Birləşmiş millət. Cəmiyyətin rifahı”, “Xalq birliyi və sistemli islahatlar – ölkənin rifahının möhkəm təməli” adlı mesajlarına əsasən hazırlanıb.

Konsepsiya miqrasiya proseslərinə dair keçmiş təcrübə və müasir reallıq nəzərə alınmaqla Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanıb.

Qazaxıstanın miqrasiya siyasəti ölkədəki miqrasiya vəziyyətindən asılı olaraq aşağıdakı şəkildə formalaşıb:

- 1991-2000-ci illər – əhalinin xaricə axını, doğum səviyyəsinin azalması, sosial-iqtisadi vəziyyətin pisləşməsi;
- 2001-2010 – iqtisadi artım, dinamik sosial-siyasi dəyişikliklər və islahatlar;
- 2011-2022 – qloballaşma şəraiti, xarici sosial və iqtisadi amillərin təsiri, etnik repatriasiya səviyyəsinin azalması və ixtisaslı mütəxəssislərin axını.

2011-ci ildən Qazaxıstanda “Əhalinin miqrasiyası haqqında” Qanun qəbul edilmişdir ki, bu da daxili miqrasiya və əhalinin ölkə daxilində bərabər yerləşdirilməsi, əhalinin iri şəhərlərdən ölkənin şimal, mərkəzi və şərq hissəsinin az inkişaf etmiş şəhər və kəndlərinə axınına yönəlib. “Serpin 2050”, “Əbədi gənclik – sənayeyə doğru”, “Diplomla şəhərə” kimi proqramlar yaxşı konsepsiyaya əsaslansa da, onların həyata keçirilməsində müəyyən çətinliklər mövcuddur.

Qazaxıstan milli miqrasiya siyasəti çərçivəsində yerli qazaxların başqa ölkələrdən repatriasiyasına böyük diqqət yetirir. Onların tarixi vətənə qayıdışı “oralman” və “kandas” proqramları ilə həyata keçirilir. 30 il ərzində 400 minə yaxın ailə, təxminən 1,1 milyon etnik qazax Qazaxıstana gələrək kandas statusu almışdır. Kandas statusu pulsuz tibbi xidmət, hərbi xidmətdən azad

olunma, yaşayış yeri üzrə mənzilin alınması üçün vəsaitin ayrılması, məktəblərdə və digər təhsil müəssisələrində kvota yerlərinin verilməsi və s. kimi müəyyən imtiyazlar və güzəştlər verir.

Qazaxlar və xarici vətəndaşlar üçün əmək kvotalarının nisbəti də ölkənin miqrasiya siyasəti ilə tənzimlənirdi. Son 8 il ərzində Qazaxıstanda işçi kvotası 10-38 min nəfər arasında dəyişib. Qazaxıstanda əcnəbilərin işləməsi üçün kvota proqramı da Avrasiya İqtisadi İttifaqı çərçivəsində həyata keçirilir və 1,6 milyona yaxın iş icazəsi verilir.

Miqrasiya siyasətinin həyata keçirilməsində Qazaxıstan ilk növbədə daha çox tələb olunan peşələr üzrə yüksək ixtisaslı mütəxəssislərin təhsili və müvafiq müasir təhsil infrastrukturunun qurulması ilə xarici qabaqcıl pedaqoqların dəvət edilməsi ilə təhsil sisteminin təkmilləşdirilməsi və gücləndirilməsini hədəfləyir.

Miqrasiya siyasətinin ikinci ölçüsü biznes miqrasiyasının stimullaşdırılmasıdır. Bu, biznes və xarici investisiyalar üçün rahat mühitin yaradılmasını nəzərdə tutur.

Miqrasiya siyasətinin üçüncü ölçüsü yüksək ixtisaslı mütəxəssislərin Qazaxıstana işləməyə dəvət edilməsi ilə bağlıdır. Mövcud geosiyasi dəyişikliklər Qazaxıstan iqtisadiyyatının inkişafı üçün də sənayenin yerdəyişməsi, yeni texnologiyalar, xüsusən də İT sahəsindəki ixtisaslı mütəxəssislərin yerdəyişməsi kimi yaxşı perspektivlər təqdim edir.

Əcnəbilərin hüquq və mənafelərinin müdafiəsinə gəlincə, Qazaxıstan BMT-nin 1951-ci il Beynəlxalq konvensiyasına və qaçqınların və vətəndaşlığı olmayan şəxslərin hüquqları və müdafiəsi haqqında protokollara uyğun olaraq qaçqınların və vətəndaşlığı olmayan əcnəbilərin qanunvericiliklə təminatına daha çox yönəlib. Eyni zamanda Qazaxıstan BMT-nin “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Konvensiyasının iştirakçısı deyil.

Qazaxıstan da regionun bir çox digər ölkələri kimi əməkçi miqrantları qəbul edən və göndərən ölkə mövqeyini tutur və vətəndaşlarının daha çox işlədiyi Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Koreya Respublikası və digər ölkələrlə vətəndaşlarının hüquqlarının müdafiəsi ilə bağlı ikitərəfli razılaşmalar əldə etməyi planlaşdırır. Qazaxıstan 2023-2027-ci illər üçün miqrasiya siyasəti Konsepsiyasını həyata keçirmək məqsədilə hər ilin birinci rübündə Qazaxıstan vətəndaşlarını daha çox cəlb edən ölkələrlə (Türkiyə, BƏƏ, ABŞ, Böyük Britaniya və Şimali İrlandiya, Koreya Respublikası, İsrail, Qətər, Almaniya) əməkçi miqrantların əmək və sosial hüquqlarının təmin edilməsinə dair ikitərəfli sazişlərin (memorandumların) hazırlanması və imzalanmasını həyata keçirir.

QIRĞIZISTAN

Qırğızıstanın dənizə çıxışı olmayan ölkə kimi və coğrafi mühitinin özəlliyi ilə əlaqədar olaraq təbii yolla iqtisadi fəaliyyət müxtəlifliyində məhdudiyyətlər mövcuddur. Bundan əlavə, sosial-iqtisadi və siyasi qeyri-sabitlik Qırğızıstandan qonşu və uzaq dövlətlərə əhalinin miqrasiya axınını

formalaşıb. Qırğızıstandan olan miqrantların qəbul edən dövlət sırasında daha çox Türkiyə, Qazaxıstan və Rusiya yer alıb. Statistikaya əsasən, orada 1,1 milyona yaxın Qırğızıstan vətəndaşı bütün işlərdə əməkçi miqrant olaraq çalışır və miqrasiya prosesi 3 milyondan çox insanın ev təsərrüfatlarına təsir göstərib. Əməkçi miqrantların pul köçürmələri Qırğızıstan ÜDM-nin demək olar ki, 30%-ni təşkil edir və Qırğızıstandan olan miqrantların xaricdəki sərvətləri ilə bağlı məsələlər Qırğız Respublikası üçün çox ciddi və vacib məsələlərdən biridir.

Qırğız Respublikasının miqrasiya haqqında qanunvericiliyinə daxil edilmiş çoxsaylı hüquqi normativ aktlarla yanaşı Qırğızıstan Respublikasının Konstitusiyası, “Daxili miqrasiya haqqında” Qanun, “Xarici miqrasiya haqqında” Qanun, “Qırğız Respublikasında xarici vətəndaşların hüquqi statusu haqqında” Qanun, Hökumətin Xarici vətəndaşlara tibbi xidmətin göstərilməsi ilə bağlı qərarı, əcnəbilərə iş icazəsi üçün kvota məsələlərini müəyyən edən “Qırğız Respublikasının lisenziya və icazə sistemi haqqında” Qanunu və digər müvafiq qanunvericilik aktlar da mövcuddur.

Qırğızıstan beynəlxalq münasibətlərin subyekti kimi 2003-cü ildən BMT-nin “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Konvensiyasının iştirakçısıdır. Konvensiyanın normalarının tələblərini yerinə yetirməklə Qırğızıstan ölkəyə daxil olan və ölkədən çıxan miqrantların miqrasiya axınına mütəmadi olaraq nəzarət edir və bu sahədə qanunvericiliyin və normaların mütəmadi olaraq təkmilləşdirilməsini həyata keçirir.

Miqrasiya prosesi ilə bağlı mühüm sənədlərdən biri də hökumətin qərarı ilə təsdiq edilmiş Qırğız Respublikasının 2021-2030-cu illər üçün miqrasiya siyasəti Konsepsiyasıdır. Miqrasiya Konsepsiyası əməkçi miqrantların dövlətin xaricində hüquq və mənafelərinin həyata keçirilməsinə yönəlib. Miqrasiya prosesinin sabitləşdirilməsi və neqativ amillərin azaldılması məqsədilə miqrasiya Konsepsiyası ilə yanaşı, 2021-ci ildə “Miqrasiya vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında” Prezidentin Sərəncamı qəbul edilib.

Əməkçi miqrantları göndərən ölkə olaraq Qırğızıstan sərfəli kreditlər, mikromaliyyələşdirmə, yenidən təlim və yenidən təhsil və s. kimi iqtisadi mexanizmlərdən istifadə etməklə əməkçi miqrantların evlərinə qaytarılması sistemini işləyib hazırlayır. Hökumət orqanları əməkçi miqrantların maliyyə resurslarının səfərbər edilməsinə, kiçik və orta biznesə yatırılan investisiyalara və onlardan əmanət kimi istifadə edilməsinə yönəlmiş proqramların hazırlanması prosesindədir.

Qırğızıstana əməkçi miqrantların repatriasiyası xarici kapitalın və əcnəbilərin iştirakı ilə müəssisələrdə əlavə iş yerlərinin yaradılması ilə də həyata keçirilir. Xarici işçi qüvvəsinin Qırğızıstana cəlb edilməsi Qırğız vətəndaşları üçün əlavə iş yerlərinin açılmasına şərait yaradır və bununla da ölkədən xaricə əmək miqrasiyasının sayı azalır.

Miqrantların sosial sığorta haqları da gələcəkdə vətəndaşların sosial rifahının təməl daşıdır. Bu məsələnin həlli variantlarından biri ölkənin təqaüd

sistemində dəyişikliklərin edilməsi və miqrantların yerləşdiyi ölkələrdən təqaüdün ödənilməsi ilə bağlı tərəfdaş ölkələrlə imzalanmış müqavilələrin bağlanmasıdır. Qırğız Respublikası 2019-cu ildə “Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin işçilərinin təqaüd təminatı haqqında” Saziş imzalayıb. Qırğızıstan Sazişin normalarının qüvvəyə minməsi üçün bütün dövlət prosedurlarını həyata keçirib. Bundan əlavə, Qırğız Respublikasının Sosial Fondu Koreya Respublikasının Milli Təqaüd Xidməti ilə əmək müqaviləsi çərçivəsində töhfə vermiş qırğız əməkçi miqrantlara Koreya Təqaüd Fondundan təqaüdün ödənilməsi ilə bağlı əməkdaşlıq edir. Türk dövlətlərinin əməkdaşlığı çərçivəsində Qırğızıstan və Türkiyə arasında 2020-ci ildə qüvvəyə minmiş Sosial təminat üzrə Hökumətlərarası Saziş imzalanıb.

Qırğızıstan və Azərbaycan digər təşkilatların iştirakçısı kimi miqrasiya məsələləri ilə bağlı qarşılıqlı sənədlərin hazırlanması prosesindədir. 2021-ci ildə Qırğızıstan və Qazaxıstan həmçinin miqrasiya sahəsində əməkdaşlıq haqqında ikitərəfli Hökumətlərarası Saziş imzalayıb və ratifikasiya ediblər. Bu sənəd hər iki tərəfdən əməkçi miqrantların hüquq və mənafelərinin qorunmasına kömək edir, dövlətlər arasında əlaqələrin və tərəfdaşlığın möhkəmləndirilməsinə töhfə verir.

TÜRKİYƏ

Avropa, Asiya və Afrikanın kəsişməsində yerləşən əlverişli coğrafi mövqeyinə görə Türkiyə həm qanuni, həm də qeyri-qanuni miqrantların keçid məntəqəsinə çevrilib. Bundan əlavə, Türkiyə bölgəsində müşahidə olunan işçi tələbatının artması ona gətirib çıxarıb ki, Türkiyə tranzit ölkəsi mövqeyindən üçüncü ölkə vətəndaşları üçün təyinat ölkəsinə çevrilib. Eyni zamanda, Yaxın Şərqdə, Qafqazda və Balkanlarda uzun illər davam edən təlatümlər əhalinin kütləvi şəkildə Türkiyəyə axınına səbəb olub. 1980-ci illərdən sonra Türkiyə təkcə əməkçi miqrant göndərən ölkə deyil, həm də miqrant qəbul edən ölkəyə çevrilib.

Beynəlxalq hüququn subyekti kimi Türkiyə miqrasiya proseslərinin idarə olunması və digər müvafiq məsələlərlə bağlı müxtəlif beynəlxalq konvensiyaların, protokolların və hərəkətlərin iştirakçısıdır. Türkiyə Beynəlxalq Miqrasiya Siyasətinin İnkişafı Mərkəzinin rəhbərlik etdiyi Aralıq dənizi regionunda tranzit miqrasiya üzrə dialoqun genişləndirilməsi təşəbbüsünü irəli sürür. Türkiyə 2006-cı ilin yanvar ayından qeyri-qanuni miqrasiyanın qarşısının alınması, qeyri-qanuni miqrasiya ilə mübarizə və davamlı inkişafa yönəlmiş miqrasiya idarəçiliyi siyasəti sahələrinə davamlı həllərin tapılması məqsədi ilə 53 dövlət, 4 müşahidəçi ölkə və 13 beynəlxalq təşkilatın, o cümlədən Avropa İttifaqının iştirakı ilə keçirilən hökumətlərarası dialoq olan Budapeşt Prosesinə sədrlik edir. Türkiyənin qeyri-qanuni miqrasiyaya qarşı mübarizədə atdığı mühüm addım onun rəhbərliyi altında miqrasiya axınlarının mənşə, tranzit və təyinat ölkələri arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə töhfə verən İpək Yolu Regionu üzrə İşçi Qrupunun yaradılması olub.

Türkiyənin miqrasiya sahəsində yuxarıda qeyd olunan fəaliyyəti ölkədə əmək miqrasiyasının idarə olunması ilə də bağlıdır. 2016-cı ildə qəbul edilmiş 6735 saylı Beynəlxalq Əmək Qanunu Türkiyə Respublikasında əcnəbilərə iş icazələrinin və iş icazələri ilə bağlı istisnaların verilməsi ilə bağlı prosedur və prinsipləri tənzimləyən hüquqi sənəddir. Əcnəbilərə iş icazələrinin verilməsi və iş icazələri ilə bağlı istisnaların bütün prosesi Türkiyə Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək üzrə Baş İdarəsi tərəfindən 6735 saylı Beynəlxalq Əmək Qanunu və digər müvafiq qanunvericilik müddəaları çərçivəsində həyata keçirilir. Qanunvericilikdə nəzərdə tutulmuş şərtlər daxilində Türkiyədə iş icazəsi müvəqqəti yaşamaq icazəsini əvəz edir. Bu norma "Xarici vətəndaşlar və beynəlxalq müdafiə haqqında" 6458 saylı Qanunda nəzərdə tutulub.

Müvafiq qanunvericiliyə uyğun olaraq dörd müxtəlif növ iş icazəsi tənzimlənir;

1. Müddətli iş icazəsi: İşəgötürəndən asılı olaraq işə götürülən əcnəbilər üçün tənzimlənir.

Müddətli iş icazəsi üçün müraciət əcnəbini işə götürəcək işəgötürən/işəgötürən nümayəndələri tərəfindən Elektron Hökumət portalı vasitəsilə onlayn şəkildə aparılır. Türkiyədə ən azı altı (6) ay müddətində etibarlı yaşayış icazəsi olan əcnəbilər üçün iş icazəsi ilə bağlı müraciətlər birbaşa Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə olunur və xaricdə isə əcnəbinin vətəndaşı olduğu və ya qanuni olaraq yaşadığı ölkədəki Türkiyə Respublikasının səfirliklərinə və ya baş konsulluqlarına iş vizası üçün müraciət yolu ilə aparılır.

Müraciət müsbət qiymətləndirilərsə əcnəbiyə əmək və ya xidmət müqaviləsinin müddətindən artıq olmaması şərti ilə, fiziki və ya hüquqi şəxsə, dövlət qurumuna və ya təşkilata məxsus konkret iş yerində və ya eyni iş sahəsindəki iş yerlərində müəyyən bir işdə işləmək şərti ilə ilk müraciətdə maksimum bir il üçün etibarlı iş icazəsi verilir.

Bu çərçivədə, verilən ilk iş icazəsinin bitməsinə 60 gün qalmış uzadılma müraciəti edilə bilər. Uzatma müraciəti müsbət qiymətləndirildiyi təqdirdə, eyni işəgötürəndən asılı olaraq əcnəbiyə birinci uzadılma müraciətində maksimum iki il, sonrakı uzadılma müraciətlərində isə üç ilə qədər iş icazəsi verilir.

2. Müddətsiz iş icazəsi: Türkiyədə uzunmüddətli yaşayış icazəsi və ya ən azı 8 il qanuni iş icazəsi olan əcnəbilər müddətsiz iş icazəsi üçün müraciət edə bilərlər. Müddətsiz iş icazəsi olan əcnəbi uzunmüddətli yaşayış icazəsinin verdiyi bütün hüquqlardan faydalanır. Müddətsiz iş icazəsi olan əcnəbilər, sosial təminatla bağlı əldə etdikləri hüquqların qorunub saxlanılması və bu hüquqların istifadəsində müvafiq qanunvericiliyə tabe olmaları şərti ilə, xüsusi qanunlardakı qaydalar istisna olmaqla, Türkiyə vətəndaşlarına verilən hüquqlardan faydalanırlar.

Müddətsiz iş icazəsi olan əcnəbinin seçmək, seçilmək və dövlət vəzifəsinə gəlmək hüququ yoxdur, hərbi xidmət keçmək məcburiyyətində deyil.

3. Sərbəst iş icazəsi: Peşəkar əcnəbilərə, digər qanunlarda göstərilən xüsusi şərtlərə əməl olunmaq şərti ilə müstəqil iş icazəsi verilə bilər. Müstəqil

iş icazəsinin beynəlxalq əmək siyasətinə uyğun olaraq, əcnəbinin təhsil səviyyəsi, peşə təcrübəsi, elm və texnologiyaya verdiyi töhfə, Türkiyədəki fəaliyyətinin və ya investisiyasının ölkə iqtisadiyyatına və məşğulluğuna təsiri Tərəfdaş xarici şirkətdirsə, kapital payı və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəyyən etdiyi digər məsələlər nəzərə alınır.

4. Mavi kart: Təhsil səviyyəsi, peşəkar təcrübə, beynəlxalq əmək siyasətinə uyğun olaraq elm və texnologiyaya töhfəsi, Türkiyədəki fəaliyyətlərinin və ya investisiyalarının ölkə iqtisadiyyatına və məşğulluğuna təsiri əsasında Nazirlik tərəfindən müəyyən edilən prosedur və prinsiplərə uyğun olaraq müraciətləri məqsədəuyğun hesab edilən əcnəbilərə Mavi kart verilir. Mavi kart əcnəbiyə Türkiyədə müddətsiz olaraq işləmək və yaşayış hüququ, yaxınlarına isə yaşayış hüququ verən sənəddir. Mavi kart üçün müraciət birbaşa ölkədəki Əmək və Sosial Müdafiə Nazirliyinə, əcnəbinin vətəndaşı olduğu və ya qanuni olaraq xaricdə yaşadığı ölkədəki Türkiyə xarici nümayəndəliyi vasitəsilə həyata keçirilir. Aşağıdakı əcnəbilərə Mavi kart verilə bilər:

a) Təhsil səviyyəsinə, əmək haqqına, peşə bilik və təcrübəsinə, elm və texnologiyaya verdiyi töhfələrə və bu kimi keyfiyyətlərə görə yüksək ixtisaslı işçi qüvvəsi sayılanlar;

b) İnvestisiya və ya ixrac səviyyəsinə, təmin edəcəkləri məşğulluğun ölçüsünə, elmi və texnoloji inkişafa töhfələrinə və oxşar xüsusiyyətlərinə görə yüksək ixtisaslı investor hesab edilənlər,

c) Elmi və texnoloji inkişafa töhfə verən və ya elm, sənaye və texnologiya sahələrində beynəlxalq səviyyədə ölkənin maraqları üçün strateji hesab edilən iş və tədqiqatlar aparan alim və ya tədqiqatçılar;

d) Mədəniyyət, incəsənət və ya idman fəaliyyətləri baxımından beynəlxalq səviyyədə uğur qazananlar,

e) Türkiyənin və ya türk mədəniyyətinin beynəlxalq səviyyədə tanınmasına və ya təbliğinə töhfə verənlər və Türkiyənin milli maraqları ilə bağlı məsələlərdə beynəlxalq səviyyədə fəaliyyət göstərənlər.

Bundan əlavə, türk dövlətləri arasında inteqrasiya proseslərini təşviq etmək məqsədilə 6735 saylı Beynəlxalq Əmək Qanununun 16-cı maddəsinə Daxili İşlər Nazirliyi və ya Xarici İşlər Nazirliyi tərəfindən türk mənşəli olduğu bildirilən əcnəbilər ilə Şimali Kipr Türk Respublikasının vətəndaşlarına iş icazəsi ilə bağlı istisnalar verilə bilər.

Digər tərəfdən, Beynəlxalq Əmək Qanununun 48-ci maddəsi əcnəbilərin Türkiyə Respublikasında iş icazəsi istisna olmaqla işləyə biləcəyi müxtəlif sahə və şərtləri müəyyən edir. Adı çəkilən maddədə tənzimlənən fəaliyyət sahələri və şərtləri çərçivəsində iş icazəsindən azad edilmə müraciətləri işləyəcək əcnəbilər tərəfindən ölkə daxilindəki sistem vasitəsilə Nazirliyə, xaricdə, əcnəbinin vətəndaşı olduğu və ya qanuni olaraq yaşadığı ölkədəki Türkiyə xarici nümayəndəliyinə verilir.

Türkiyədə çalışan əcnəbilərə müxtəlif növ iş icazələrinin və iş icazəsi azadlığının verilməsi ölkəyə ixtisaslı əcnəbi işçi qüvvəsinin gətirilməsi, işçi qüvvəsi çatışmazlığı olan sektorlarda əcnəbi işçi tələbatının ödənilməsi və Türkiyədə potensialın artırılması baxımından müsbət bir vasitədir.

Ötən yeddi il ərzində TÜRKPA üzv dövlətləri, müşahidəçi və qonaq qismində olan dövlətlərin vətəndaşları üçün Türkiyə təxminən 55 min iş icazəsi verib (əlavələr).

Cədvəl 1: Ümumi iş icazələri

MİLLİYYƏT	2016	2017	2018	2019	2020	2021	2022	2023*	ÜMUMİ
Azərbaycan	1,886	2,458	2,996	2,978	2,945	3,612	4,493	4,177	**25,545**
Qazaxıstan	999	1,353	1,799	2,860	961	2,051	4,742	5,274	**20,039**
Qırğızıstan	3,054	6,374	13,454	11,003	3,505	4,570	6,648	7139	**55,747**
Özbəkistan	2,454	2,474	3,969	4,480	4,383	3,912	4,677	4,989	**31,338**
ŞKTR	69	65	70	71	44	72	87	55	**533**
Macarıstan	124	71	72	94	28	37	56	41	**523**
Türkmənistan	3,506	3,865	5,548	6,128	9,721	7,850	8,962	8,487	**54,067**

* Tarixlər 01.01.2023-30.09.2023-cü illəri əhatə edir.

Cədvəl 3: Kateqoriyalara görə verilən ümumi iş icazələri

MİLLİYYƏT	İlkin müraciət	Uzadılma	ÜMUMİ
Azərbaycan	2,542	1,635	**4,177**
Qazaxıstan	4,854	420	**5,274**
Qırğızıstan	6,222	917	**7,139**
Özbəkistan	3,481	1,508	**4,989**
ŞKTR	23	32	**55**
Macarıstan	25	16	**41**
Türkmənistan	5,272	3,215	**8,487**

* Tarixlər 01.01.2023-30.09.2023-cü illəri əhatə edir.

Cədvəl 4: İş İcazəsi İstisnalarının Sayı

Milliyyət	01.10.2022-31.12.2022	01.01.2023-30.09.2023
Azərbaycan	107	1214

Qazaxıstan	5	307
Qırğızıstan	4	492
Özbəkistan	1	41
ŞKTR	0	1
Macarıstan	1	34
Türkmənistan	6	40

NƏTİCƏ

TÜRKPA-nın hər bir üzv dövlətində miqrasiya siyasəti iki əsas istiqamət üzrə işi nəzərdə tutur:

1. Qəbul edən ölkələrlə çoxtərəfli və ikitərəfli müqavilələr hazırlamaqla xaricdə işləyən vətəndaşlarının hüquq və mənafelərini qorumaq;
2. Öz dövlətlərində işləyən yüksək ixtisaslı miqrantlar arasında müsbət balans yaratmaq.

Ölkədə əmək miqrasiyası proseslərini idarə etmək və asanlaşdırmaq üçün Türkiyə Azərbaycan və Şimali Kiprlə ikitərəfli əmək razılaşmaları imzalayıb. Türkiyənin əmək miqrasiyası ilə bağlı milli qanunvericiliyinin normalarına əlavə olaraq Azərbaycan, Qazaxıstan, Türkmənistan və Şimali Kipr ilə tərəfdaşlıq haqqında Sazişlər, habelə Azərbaycan, Qırğızıstan, Macarıstan və Şimali Kiprlə sosial müdafiə haqqında Saziş mövcuddur.

Azərbaycan ikitərəfli əsasda tərəfdaş ölkələrlə sazişlər imzalayır. Misal olaraq, 2020-ci ilin mart ayında Azərbaycan və Türkmənistan arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Saziş imzalanıb.

Qırğızıstan və Qazaxıstan arasında miqrasiya məsələlərinin asanlaşdırılmasına dair ikitərəfli sazişlərdən başqa, həmçinin Avrasiya İqtisadi İttifaqı çərçivəsində təqaüdün ixracına dair saziş əsasında miqrasiya əməkdaşlığında yaxşı nəticələr əldə edirlər.

Müasir miqrasiyanın diqqətəlayiq xüsusiyyəti İT sahəsinin sürətli inkişafı ilə yanaşı əmək miqrasiyasının rəqəmsallaşmasıdır. Misal olaraq, öz mənşə dövlətlərindən ayrılmadan işləmək məqsədilə yüksək ixtisaslı mütəxəssislərin işə cəlb edilməsini təşviq edən və fiziki miqrasiyanı asanlaşdıran və ya dövlətin sosial-iqtisadi xidmətlərinin göstərilməsinə təzyiqi azaldan rəqəmsal köçəri, mavi kart, qlobal istedad vizası və s. kimi çoxsaylı iş vizaları mövcuddur.

Geosiyasi hadisələr, iqtisadi müharibələrin və münaqişələrin qloballaşması insanların böyük miqrasiyasına (qaçqınlar, qanuni və qeyri-qanuni miqrasiya və s.) təsir göstərir. Onu da qeyd etmək lazımdır ki, əməkçi miqrantların heç də hamısının TÜRKPA üzv dövlətlərinin kvota sisteminə uyğun olaraq yüksək maaşlı iş əldə etmələrinə qanuni şəkildə kömək edə biləcək kifayət qədər təhsili mövcud deyil. Çıxılmaz vəziyyətin nəticəsi olaraq əməkçi miqrantlar öz insan hüquqlarına qarşı etinasızlıq göstərməyə, lakin

ailələri üçün müəyyən qədər pul qazanmağa hazır olduqlarını nümayiş edirlər. Bu vəziyyətin yaxşılaşdırılması məqsədilə müxtəlif beynəlxalq konvensiyalar hazırlanıb. Bu konvensiyaların iştirakçısı olmaq müəyyən mənada əməkçi miqrantlara layiqli həyat və iş zəmanət verir ki, bu da “2030-cu il Gündəliyi”nin məqsədlərindən biridir.